# Məhkəmə-hüquq islahatları məhkəmə sisteminin fəaliyyətini yaxşılaşdırır



***Müstəqil respublikamızın son illərdə bütün sahələrdə dinamik inkişaf etməsi, habelə insan hüquq və azadlıqları sahəsində ixtisaslaşmış nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığının genişlənməsi məhkəmə-hüquq islahatlarının da keyfiyyətcə yeni mərhələdə davam etdirilməsinə etibarlı zəmin yaratmışdır. Məhkəmələrin insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, ədalət mühakiməsinin qanunamüvafiq şəkildə həyata keçirildiyi instansiyaya çevrilməsi, cəmiyyətdə yüksək etimad qazanması bu sahədə beynəlxalq təcrübənin tətbiqini şərtləndirmişdir.***

Müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılması, ədalət mühakiməsinin şəffaf, demokratik, obyektiv şəraitdə həyata keçirilməsi, bu zaman insan və vətəndaş hüquq və azadlıqlarının maksimum səviyyədə qorunması baxımından hakimlər korpusunun sağlamlaşdırılması məsələləri ötən dövrdə ölkəmizdə xüsusi diqqət mərkəzində olmuşdur. Xatırlatmaq yerinə düşər ki, müstəqillik illərində yeni dövrün tələblərinə cavab verən üçpilləli məhkəmə sisteminin yaradılması, məhkəmə orqanlarının müstəqilliyinin təmin edilməsi üçün hakimlərin şəffaf və demokratik yolla– test üsulu ilə seçilməsinin əsası hələ 2000-ci ildə ümummilli lider Heydər Əliyevin siyasi iradəsi ilə qoyulmuşdur. Məhz həmin il hakimliyə namizədlərin şəffaf prosedur əsasında, beynəlxalq tələblərə uyğun seçilməsi məqsədilə test üsulu ilə imtahanın və şifahi müsabiqənin keçirilməsi təmin edilmiş, hakim korpusu yenilənmişdir.

Bu islahatları son 16 ildə inamla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sisteminin daha da müasirləşdirilərək Avropa standartlarına tam uyğunlaşdırılması işi davam etdirilir. 2004-cü ildən başlayaraq, Azərbaycan–Avropa Şurası birgə işçi qrupları yaradılaraq onun tərkibinə nüfuzlu beynəlxalq ekspertlər daxil edilmiş, çoxşaxəli fəaliyyət planı hazırlanıb həyata keçirilmişdir. Görülmüş tədbirlər nəticəsində “Məhkəmələr və hakimlər haqqında” qanun əsaslı şəkildə yenilənmiş, “Məhkəmə-Hüquq Şurası haqqında” yeni qanun, Hakimlərin Seçki Komitəsi haqqında Əsasnamə, Hakim vəzifələrinə namizədlərin seçimi Qaydaları, Hakimlərin Etik Davranış Kodeksi, eləcə də məhkəmələrdə işin şəffaf təşkili ilə bağlı digər mühüm sənədlər qəbul olunmuşdur və ardıcıl və uğurla tətbiq olunmaqdadır.

Məhkəmələrin iş yükünün azaldılması, işlərə vaxtında nəzərdə tutulmuş qaydada və vaxtda baxılması məqsədilə məhkəmələrdə hakimlərin sayının artırılması da diqqət mərkəzində olmuşdur. Son 15 ildə hakimlərin sayı 2 dəfə, məhkəmə işçilərinin sayı 75 faiz artırılmış, hər bir hakimə köməkçi ayrılmışdır. Respublika üzrə hakimlərin sayının 600 nəfər müəyyən olunması ədalət mühakiməsinin keyfiyyətini daha da yüksəldilməsinə xidmət etmişdir. Bundan başqa, son illər hakimlərin müddətsiz–son yaş həddinədək təyinatı, fəaliyyətlərinin qiymətləndirilməsi və intizam məsuliyyətinə cəlb edilməsinin demokratik əsasları təsbit olunmuşdur.

Məhkəmə-Hüquq Şurasının rəhbəri, ədliyyə naziri Fikrət Məmmədovun yüksək təşkilatçılığı ilə hakimlərin fəaliyyətinin qiymətləndirilməsinin daha şəffaf, obyektiv, çevik mexanizmlərinin müəyyənləşdirilməsi ədalət mühakiməsinin səmərəliliyini və keyfiyyətini artırmışdır. Ədalətli qiymətləndirmələr, təyinatlar nəticəsində cəmiyyətin məhkəmələrə olan inamı möhkəmlənmiş, ölkəmizin beynəlxalq imici yüksəmişdir. Qürurverici haldır ki, Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEJ) Azərbaycanda hakimlərin seçimi prosesini bilavasitə izləməklə ölkəmizin təcrübəsini digər Avropa dövlətlərinə örnək kimi göstərmişdir.

Regionların sosial-iqtisadi inkişafına xidmət edən tədbirlərin genişləndirilməsi ilə paralel bölgələrdə yaşayan əhalinin məhkəmələrə müraciət imkanlarının genişləndirilməsi və səmərəli məhkəmə müdafiəsi mexanizmləri də təmin edilmişdir. Ümumilikdə, son 10 il ərzində ölkəmizdə 20-dək yeni regional məhkəmələr, o cümlədən apelyasiya, ağır cinayətlər, inzibati-iqtisadi və hərbi məhkəmələr fəaliyyətə başlamışdır.

Məhkəmələrin fəaliyyətində müasir informasiya texnologiyalarının geniş tətbiqi də aparılan islahatların mühüm istiqamətlərindən birini təşkil edir. Vətəndaşların məhkəmələrə müraciətlərinin sadələşdirilməsi, elektron xidmətlərin təşkili məqsədilə bütün məhkəmələri əhatə edən vahid internet portalı yaradılmışdır. Bundan əlavə, “Elektron Məhkəmə” İnformasiya Sisteminin tətbiqi də məhkəmələrin iş rejiminin müasirləşdirilməsi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Son dövrdə Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə məhkəmələrin yeni bina və inventarla təmini, onların iş şəraitinin yaxşılaşdırılması istiqamətində də mühüm addımlar atılmışdır.

Dünya Bankının dəstəyi ilə Ədliyyə Nazirliyinin uğurla həyata keçirdiyi “Ədliyyə sisteminin müasirləşdirilməsi” layihəsi çərçivəsində son 10 ildə Bakı şəhərinin Yasamal, Sabunçu, Nərimanov məhkəmə komplekslərinin, eləcə də Şəki, Gəncə, Oğuz, Gədəbəy, Quba və İmişli rayon məhkəmələrinin yeni binaları istifadəyə verilmişdir. Bunun nəticəsi kimi, Dünya Bankı Azərbaycanda ədliyyə sahəsindəki bu yeniliyi ən uğurlu layihələrindən biri kimi qiymətləndirmiş və “Vətəndaşlara yüksək səviyyəli xidmətlərin göstərilməsi məqsədilə müasir infrastrukturun yaradılması” nominasiyasının qalibi elan etmişdir.

Həyata keçirilən məhkəmə-hüquq islahatlarının önəmli tərkib hissəsi olaraq son illər cəza siyasətinin humanistləşdirilməsi məsələsi də diqqət mərkəzindədir. Dövlət başçısının 10 fevral 2017-ci il tarixli sərəncamı əsasında Ədliyyə Nazirliyinin tərkibində Probasiya Xidmətinin yaradılması bu baxımdan son dərəcə əhəmiyyətli olmuşdur. Sərəncamdan irəli gələn vəzifələrin icrası məqsədilə ötən dövrdə Ədliyyə Nazirliyi kompleks tədbirlər gerçəkləşdirmiş, o cümlədən aidiyyəti qurumlarla birgə işçi qrupu yaradılaraq beynəlxalq təcrübə öyrənilməklə, bu sahədə qanunvericilik və məhkəmə-istintaq təcrübəsi təhlil olunmuşdur. Bundan əlavə, cəza siyasətinin humanistləşdirilməsi, elektron nəzarət vasitələrinin tətbiqi ilə bağlı Cinayət və İnzibati Xətalar məcəllələrinə mühüm dəyişikliklər edilmiş, Cinayət-Prosessual və Cəzaların İcrası məcəllələrinə dəyişikliklərlə bağlı qanun layihələri hazırlanmışdır. Cinayət Məcəlləsinə 300-dək dəyişiklik edilmiş, müvafiq maddələrdə azadlıqdan məhrumetmə ilə yanaşı, yüksək məbləğlərdə cərimə cəzası da tətbiq olunmuş, cinayət tərkiblərinin məcəllədən çıxarılması yolu ilə bəzi əməllər dekriminallaşdırılmışdır.

Ölkənin davamlı tərəqqisinin təmin edilməsi, islahatların sürətləndirilməsi məqsədilə həyata keçirilən kompleks tədbirlər Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” fərmanının imzalanmasını da şərtləndirmişdir. Bu fərman məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasının və məhkəmə-hüquq islahatlarının davamlılığının real göstəricisi olmaqla, müvafiq “strateji yol xəritəsi” rolunu oynayır. Həmin sənədin başlıca məqsədi müasir dövrün tələblərinə cavab verən və cəmiyyətdə yüksək nüfuz qazanan ədalət mühakiməsinin formalaşdırılması prosesinin sürətləndirilməsidir.

Fərmanla Azərbaycan Respublikasının bütün məhkəmə sədrlərinə və hakimlərinə məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi və ədalət mühakiməsinin digər mühüm prinsiplərinə dönmədən riayət etmək tövsiyə olunmuşdur. Eləcə də Azərbaycan Respublikası Ali Məhkəməsinə, Baş Prokurorluğa və Ədliyyə Nazirliyinə cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirləri davam etdirmək məqsədilə müvafiq qanun layihələrini hazırlamaq tapşırılmışdır. Sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması, meydana çıxan mübahisələrə dərin hüquqi bilik və təcrübəsi olan hakimlərin baxmasının təmin edilməsi məqsədilə ixtisaslaşmış yeni məhkəmənin yaradılması da qeyd edilən fərmanın əhəmiyyətini artırır. Qarşıya qoyulmuş vəzifələrin reallaşdırılması, şübhəsiz, hakimlərin fəaliyyətinin səmərəliliyini və keyfiyyətini təmin edəcək, cəmiyyətdə məhkəmələrə etimadı daha da gücləndirəcəkdir.

Ölkə Prezidentinin 19 iyul 2019-cu il tarixli sərəncamı ilə mövcud inzibati-iqtisadi məhkəmələr ləğv edilməklə Naxçıvan Muxtar Respublikasında, Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəkidə yeni Kommersiya və ayrıca İnzibati məhkəmələr yaradılmışdır. 2020-ci ilin yanvar ayının 1-dən fəaliyyətə başlayacaq həmin məhkəmələrin müvafiq bina, avadanlıq, digər təşkilati-texniki vasitələrlə təmin edilməsi, məhkəmə aparatlarının formalaşdırılması üzrə tədbirlər görülür. Yeni məhkəmələrin yaradılması, şübhəsiz, Azərbaycanın sosial-iqtisadi inkişafında mühüm rolu olan iş adamlarının qanuni mənafelərinin ixtisaslaşmış məhkəmələrdə daha etibarlı müdafiəsinə təminat yaradacaq, ümumən, biznes mühitinin liberallaşmasını təmin edəcəkdir.

Xatırladaq ki, Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələr üzrə hakimlərinin sayının 200 nəfər artırılması hakimlərin iş yükünün azalmasına, məhkəmə qərarlarının, bütövlükdə, ədalət mühakiməsinin keyfiyyətinin yüksəlməsinə müsbət təsirini göstərəcəkdir. Artıq həmin ştatların məhkəmələr, o cümlədən yeni yaradılmış kommersiya və inzibati məhkəmələr üzrə bölüşdürülməsi ilə bağlı müvafiq qərar qəbul olunmuşdur.

Bütün bunlar bir daha təsdiqləyir ki, bu günlərdə yaranmasının 101-ci ildönümünü qeyd edən Azərbaycanın ədliyyə və məhkəmə orqanları davamlı müasirləşmə və inkişaf yolundadır. Yeni dövrün tələblərinə müvafiq olaraq ölkəmizdə ardıcıl və sistemli şəkildə həyata keçirilən islahatlar milli ədliyyə sistemi və məhkəmə orqanlarının fəaliyyətində də əsaslı dönüş yaradır, onların dövlətin hüquq sistemindəki layiqli mövqeyini təmin edir.

***Abbas RZAYEV,***
***Binəqədi Rayon Məhkəməsinin hakimi***